# Qətərdə Azərbaycan Ticarət Evi açılıb

Azərbaycanın xarici ölkələrdə ticarət evlərinin yaradılması müsbət nəticələr verir, yerli məhsullarımızın ixracı təşviq edilir, "Made in Azerbaijan" brendinin tanıdılması, məhsullarımızın satışının təşkili və əlaqələndirilməsi işi uğurla həyata keçirilir.

İqtisadiyyat Nazirliyindən verilən məlumatda bildirilir ki, nazir Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti Qətərə səfəri çərçivəsində Azərbaycan Ticarət Evinin açılışında iştirak edib. Bu, Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən sayca 13-cü ticarət evidir. Azərbaycan sahibkarlarının özəl sərmayələri hesabına Doha şəhərində yaradılan Azərbaycan Ticarət Evi yerli məhsullarımızın Qətər bazarında daha çox tanıdılmasına, ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, bu məhsulların satışını təşkil edəcək, sahibkarlar arasında əlaqələndirməni gücləndirəcəkdir.

Paytaxt Dohanın mərkəzində yerləşən və 300 kvadratmetrə yaxın sahəni əhatə edən Ticarət evində Azərbaycanın 20-dən çox şirkətinin 600-ə yaxın növdə məhsulları - meyvə və tərəvəzlər, quru meyvələr, milli xörəklər, çay, mürəbbə, meyvə şirələri, mineral sular, limonadlar, konserv məhsulları, bitki yağları, süd və süd məhsulları, qənnadı məmulatları, gigiyenik məhsullar və s. nümayiş etdirilir. Ticarət evində Azərbaycanın zəngin mətbəxini təqdim edən restoran da fəaliyyət göstərir.






Ticarət evinin sərgi salonunda işgüzar görüş zalı da yaradılıb. Bu, sahibkarlar arasında əlaqələrin genişləndirilməsinə xidmət edəcək. Azərbaycan Ticarət Evinin fəaliyyətə başlaması ilə əlaqədar keçirilən tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslanan Azərbaycan-Qətər əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayıb və Dohada Azərbaycan Ticarət Evinin açılmasının ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına verilən böyük önəmin, Qətərdə Azərbaycan məhsullarına olan marağın göstəricisi olduğunu bildirib. İqtisadiyyat naziri vurğulayıb ki, Ticarət evinin fəaliyyəti Azərbaycanla Qətər arasında yeni işgüzar təşəbbüslərin və iqtisadi əlaqələrin stimullaşdırılması baxımından faydalı olacaq.

Qətərin "United Development Company" Səhmdar Şirkətinin prezidenti İbrahim Cassim Al Osman, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılov Dohada Azərbaycan Ticarət Evinin fəaliyyətə başlamasının iqtisadi tərəfdaşlığın inkişafında, işgüzar əlaqələrin genişlənməsində əhəmiyyətini qeyd ediblər. Tədbirdə Qətərin Ticarət və Sənaye, Xarici İşlər nazirliklərinin, bu ölkədə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, iş adamları da iştirak ediblər.

Sonda tədbir iştirakçıları Azərbaycan Ticarət Evi ilə tanış olublar.

Azərbaycan. - 2022.- 1 noyabr.- S.4.